# Direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin imtahan mərhələsi ilə bağlı test tapşırığı nümunələri

1. **Aşağıda qeyd olunanlardan biri “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda strateji istiqamətlərdən biri deyil:**
   A. 10 illik icbari ümumi orta təhsil və 2 illik tam orta təhsil modelinə mərhələli şəkildə keçidi təmin etməklə, 12 illik ümumi təhsil sisteminin yaradılması
   B. Nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan təhsildə yeni idarəetmə sisteminin formalaşdırılması
   C. Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması
   D. Təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması.
   E. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması.

   ***Düzgün cavab: A***
   İZAH. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”
   6. Strateji istiqamətlər
   1. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması.
   2. Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması.
   3. Nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan təhsildə yeni idarəetmə sisteminin formalaşdırılması.
   4. Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması.
   5. Təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması.
   A variantında qeyd olunan “10 illik icbari ümumi orta təhsil və 2 illik tam orta təhsil modelinə mərhələli şəkildə keçidi təmin etməklə, 12 illik ümumi təhsil sisteminin yaradılması” isə 3-cu strateji istiqamət üzrə həyata keçiriləcək tədbirlərdən biridir *(“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, 3.1.2.3.*).

2. **Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydasında sertifikatlaşdırılmanın keçirilməsi ilə bağlı qeyd olunanlardan biri doğrudur:**

A. Sertifikatlaşdırmanın keçirilməsi yerini, vaxtını və sertifikatlaşdırmanın keçiriləcəyi ixtisasları Nazirlər Kabineti müəyyən edir və altsistemdə yerləşdirir.
B. Sertifikatlaşdırmanın test mərhələsinə 90 dəqiqə vaxt ayrılır.

C. Sertifikatlaşdırmanın test mərhələsində azı 30 (otuz) bal toplamış təhsilverənlər sertifikatlaşdırmanın müsahibə mərhələsinə buraxılırlar. Müsahibə mərhələsində hər bir təhsilverənə 20 (iyirmi) dəqiqə vaxt ayrılır.
D. Sertifikatlaşdırmanın test mərhələsinin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış rejimdə proqram təminatı vasitəsilə həyata keçirilir və təhsilverənin nəticələri test mərhələsi başa çatdıqdan 1 iş günü sonra elan edilir.
E. Müsahibənin keçirilməsi üçün Təhsil Nazirliyinin təklifləri əsasında Təhsilverənlərin Sertifikatlaşdırılması Şurası müsahibə komissiyası yaradır və onun tərkibini təsdiq edir.

***<u>Düzgün cavab: C</u>***

İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası”

3.Sertifikatlaşdırmanın təşkili

3.2.Sertifikatlaşdırmanın keçirilməsi yerini, vaxtını və sertifikatlaşdırmanın keçiriləcəyi ixtisasları Nazirlik müəyyən edir və altsistemdə yerləşdirir.

3.10.Sertifikatlaşdırmanın test mərhələsinə 120 dəqiqə vaxt ayrılır.

3.12.Sertifikatlaşdırmanın test mərhələsinin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış rejimdə proqram təminatı vasitəsilə həyata keçirilir və təhsilverənin nəticələri test mərhələsi başa çatdıqdan dərhal sonra ona elan edilir.

3.15.Müsahibənin keçirilməsi üçün Sertifikatlaşdırma Şurasının təklifləri əsasında Nazirlik müsahibə komissiyası yaradır və onun tərkibini təsdiq edir.

3. **Holistik qiymətləndirmə sxemlərinin mahiyyəti nədir?**

A. Şagirdin ayrı-ayrı fəaliyyət sahələri üzrə qiymətlərini təyin edir. Qiymətləndirmədə mütləq şəkildə 4-5 ballıq şkaladan istifadə edilir.
B. Şagirdlərin fəaliyyəti ardıcıl qiymətləndirilməklə, onların nailiyyətləri haqqında daha ətraflı informasiya verilir, lakin qiymətləndirmə üçün daha çox vaxt tələb olunur.
C. Şagirdin işi ilə bağlı ümumi təəssürat yaradır və əksər hallarda fəaliyyət səviyyələrini əks etdirən 4-5 ballıq şkalaya əsaslanır. Bu növ sxemlər sürətli qiymətləndirmə aparmaqla, şagird nailiyyətləri üzrə ümumi mənzərəni təsvir edir.
D. Şagirdin müxtəlif fəaliyyət sahələri üzrə qiymətlərini təyin edir. Qiymətləndirmədə, əsasən, 4 ballıq şkaladan istifadə edilir.
E. Şagirdin işi ilə bağlı ətraflı təəssürat yaradır və yalnız 5 ballıq şkaladan istifadə edilir. Bu növ sxemlərdə qiymətləndirmə üçün uzun müddət lazımdır.

***<u>Düzgün cavab: C</u>***

İZAH: Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası

1.8.Qiymətləndirmə standartlarının və qiymətləndirmə vasitələrinin hazırlanması

Qiymətləndirmə sxemləri mahiyyət etibarı ilə *iki növə* ayrılır.

*Holistik qiymətləndirmə sxemləri* şagirdin işi ilə bağlı ümumi təəssürat yaradır və əksər hallarda fəaliyyət səviyyələrini əks etdirən 4-5 ballıq şkalaya əsaslanır. Bu növ sxemlər sürətli qiymətləndirmə aparmaqla, şagird nailiyyətləri üzrə ümumi mənzərəni təsvir edir.

*Analitik qiymətləndirmə sxemləri* şagirdin ayrı-ayrı fəaliyyət sahələri üzrə qiymətlərini təyin edir. Qiymətləndirmədə, əsasən, 4-5 ballıq şkaladan istifadə edilir. Bu zaman şagirdlərin fəaliyyəti ardıcıl qiymətləndirilməklə, onların nailiyyətləri haqqında daha ətraflı informasiya verilir, lakin qiymətləndirmə üçün daha çox vaxt tələb olunur.

4. **"Məktəbə hazırlığın təşkili Qaydaları"nda nəzərdə tutulan məktəbə hazırlığın təşkili məsələləri ilə bağlı qeyd olunanlardan hansı doğrudur?**

A. Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, uşaqların intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini təmin edir.
B. Məktəbəqədər təhsil müəssisələrində məktəbəhazırlıq qrupları 4 yaşdan 6 yaşadək uşaqları əhatə edir və mülkiyyət formasından asılı olmayaraq, bütün məktəbəqədər təhsil müəssisələrində ehtiyac olduğu halda, 4 yaşlı uşaqlar üçün məktəbəhazırlıq qrupları təşkil olunmalıdır.
C. Məktəbəhazırlıq qruplarında bir məşğələnin müddəti 40 dəqiqə, məşğələlərarası fasilə 15 dəqiqə müəyyən edilir. Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 10 idman dəqiqəsi keçirilir.
D. Məktəbə hazırlığın əsas məqsədi beşyaşlı uşaqların tələb və imkanlarını nəzərə almaqla onların məktəbə hazırlıq mərhələsində yalnız fiziki inkişafını formalaşdırmaqdır.
E. Məktəbəhazırlıq qruplarında həftə ərzində 24 məşğələ təşkil edilir.

***<u>Düzgün cavab: A</u>***

İZAH: "Məktəbə hazırlığın təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı
Maddə 1-4

5. **Qızıl və ya gümüş nişanla təltifi üçün namizədliyi verilə bilər:**

A. ümumi orta təhsil səviyyəsini 70 faiz "əla" qiymətlərlə bitirənlər
B. tam orta təhsil səviyyəsində oxuduğu müddətdə fənlər üzrə cari qiymətlərinin ən azı 85 faizi "əla" olanlar
C. humanitar fənlər üzrə illik qiymətləri "əla" olanlar
D. ibtidai təhsil səviyyəsini ən azı 85 faiz "əla" qiymətlərlə bitirənlər
E. bütün fənlərdən illik qiymətləri "əla" olanlar

***<u>Düzgün cavab: E</u>***

İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 yanvar tarixli, 8 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltif olunma Qaydası"
4.Aşağıdakı təhsilalanların qızıl və ya gümüş nişanla təltifi üçün namizədliyi verilə bilər:
4.1. ümumi orta təhsil səviyyəsini 75 faiz "əla" qiymətlərlə bitirənlər;
4.2. tam orta təhsil səviyyəsində oxuduğu müddətdə fənlər üzrə cari qiymətlərinin ən azı 75 faizi "əla" olanlar;
4.3. bütün fənlərdən illik qiymətləri "əla" olanlar;
4.4. bu Qaydanın 2-ci bəndində nəzərdə tutulan tələblərə uyğun olanlar.

***6.*** **“Təhsildə xüsusi nailiyyətlərə görə” qızıl və gümüş nişanların təsviri ilə bağlı qeyd olunanlardan biri *yanlışdır:***

A. Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların təltif olunması üçün qızıl və gümüş nişanlar diametri 40 mm, qalınlığı 3 mm olan lövhə şəklində hazırlanır.
B. Qızıl nişanın yan səthində çevrə boyunca böyük çap hərfi ilə QIZIL *NİŞAN*, gümüş nişanın yan səthində GÜMÜŞ *NİŞAN* sözləri nəqş olunur.
C. Nişanların üz tərəfində Azərbaycan Respublikasının Dövlət gerbi, gerbdən yuxarıda “Azərbaycan Respublikası” sözləri simmetrik yerləşdirilməklə həkk olunur.
D. Nişanlar müvafiq olaraq qızıl və gümüş metaldan hazırlanır.
E. Qızıl nişanın səthinə qızıl, gümüş nişanın səthinə gümüş suyu çəkilir.

***<u>Düzgün cavab: D</u>***

İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 aprel tarixli, 53 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsildə xüsusi nailiyyətlərə görə” qızıl və gümüş medalların təsviri”

1. Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların təltif olunması üçün qızıl və gümüş *nişanlar* diametri 40 mm, qalınlığı 3 mm olan lövhə şəklində hazırlanır.
2. *Nişanların* üz tərəfində Azərbaycan Respublikasının Dövlət gerbi, gerbdən yuxarıda “Azərbaycan Respublikası” sözləri simmetrik yerləşdirilməklə həkk olunur.
3. *Nişanların* arxa tərəfində çevrə daxilində qövsvarı kəsikdən başlanan günəş şüaları fonunda açıq vəziyyətdə olan kitabın qövsvarı kəsiklə daxili çevrə arasındakı hissədə aypara və səkkizguşəli ulduzun təsviri, yuxarı hissədə iki çevrə arasında saat əqrəbi istiqamətində “Təhsildə xüsusi nailiyyətlərə görə” sözləri həkk edilir. Bütün yazılar və təsvirlər qabarıqdır.
4. Qızıl *nişanın* yan səthində çevrə boyunca böyük çap hərfi ilə QIZIL *NİŞAN,* gümüş *nişanın* yan səthində GÜMÜŞ *NİŞAN* sözləri nəqş olunur.
5. *Nişanlar* bürünc metaldan hazırlanır. Qızıl nişanın səthinə qızıl, gümüş nişanın səthinə gümüş suyu çəkilir.
6. *Nişanlar* qırmızı rəngli plastik qutulara qablaşdırılır.

7.**Ümumi orta təhsil haqqında və tam orta təhsil haqqında fərqlənmə attestatları hansı tələblərə uyğun gələn məzunlara verilir?**

1. ümumi orta və ya tam orta təhsil səviyyəsində oxuduğu müddətdə nümunəvi davranışı ilə fərqlənməsi;
2. bütün fənlərdən attestata yazılan illik (yekun) qiymətlərinin 5 (beş) olması;
3. ümumi orta təhsil səviyyəsində buraxılış imtahanlarında hər bir fənn üzrə ən azı 70 (yetmiş) bal toplaması;
4. tam orta təhsil səviyyəsində buraxılış imtahanlarında hər bir fənn üzrə 5 (beş) qiymət alması (ən azı 68 (altmış səkkiz) bal toplaması);
5. tam orta təhsil səviyyəsində buraxılış imtahanlarında hər bir fənn üzrə 5 (beş) qiymət alması (ən azı 75 (yetmiş beş) bal toplaması);

A. 1, 3, 4
B. 2, 4, 5
C. 2, 3, 4
D. 3, 4, 5
E. 1, 2, 5

***<u>Düzgün cavab: E</u>***

İZAH: Azərbaycan Respublikası Təhsil nazirinin 08.06.2017-ci il tarixli 129 nömrəli əmri ilə təsdiq edilmiş “Ümumi orta təhsil haqqında və tam orta təhsil haqqında fərqlənmə attestatlarının verilməsi Qaydası”

2.Ümumi orta təhsil haqqında və tam orta təhsil haqqında fərqlənmə attestatları aşağıdakı tələblərə uyğun gələn məzunlara verilir:

2.1. ümumi orta və ya tam orta təhsil səviyyəsində oxuduğu müddətdə nümunəvi davranışı ilə fərqlənməsi;

2.2. bütün fənlərdən attestata yazılan illik (yekun) qiymətlərinin 5 (beş) olması;

2.3. ümumi orta təhsil səviyyəsində buraxılış imtahanlarında hər bir fənn üzrə ən azı 75 (yetmiş beş) bal toplaması;

2.4. tam orta təhsil səviyyəsində buraxılış imtahanlarında hər bir fənn üzrə 5 (beş) qiymət alması (ən azı 75 (yetmiş beş) bal toplaması);

2.5. buraxılış imtahanında inşadan (essedən) minimum 7 (yeddi) bal toplaması.

8. **Təhsil müəssisələrinin yaradılması, genişləndirilməsi, yenidən təşkili zərurəti yarandıqda:**

A. Təhsil Nazirliyi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına rəsmi qaydada müraciət edir.

B. nazirliklər, dövlət komitələri, şirkətləri və konsernləri, baş idarələr və digər dövlət qurumları, yerli icra hakimiyyəti orqanları real vəziyyəti öyrənir, qaldırılan məsələnin Azərbaycan Respublikasının Təhsil Qanununa, təhsil haqqında qəbul olunan standartlara, ölkədə aparılan təhsil islahatı proqramına, respublikanın iqtisadi və sosial inkişafının əsas istiqamətlərinə uyğunluğunu, eləcə də maliyyə imkanlarını nəzərə almaqla vəsatət qaldırır.

C. bələdiyyələr real vəziyyəti öyrəndikdən sonra aidiyyəti qurumlara bu istiqamətdə tapşırıqlar verir.

D. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vəsatət qaldırılır, lazımi istiqamətdə tədbirlər görülür.

E. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Maliyyə Nazirliyi aidiyyəti qurumlara bu istiqamətdə tapşırıqlar verir.

***<u>Düzgün cavab: B</u>***

İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 14 may tarixli, 67 nömrəli qərarı ilə təsdiq edilmiş “Büdcədən maliyyələşən təlim-tərbiyə və təhsil müəssisələrinin yaradılması, genişləndirilməsi, yenidən təşkili və ləğv edilməsi Qaydaları”

3.Təhsil müəssisələrinin yaradılması, genişləndirilməsi, yenidən təşkili zərurəti yarandıqda nazirliklər, dövlət komitələri, şirkətləri və konsernləri, baş idarələr və digər dövlət qurumları, yerli icra hakimiyyəti orqanları real vəziyyəti öyrənir, qaldırılan məsələnin Azərbaycan Respublikasının Təhsil Qanununa, təhsil haqqında qəbul olunan standartlara, ölkədə aparılan təhsil islahatı proqramına, respublikanın iqtisadi və sosial inkişafının əsas istiqamətlərinə uyğunluğunu, eləcə də maliyyə imkanlarını nəzərə almaqla vəsatət qaldırır.

**9. Təhsil müəssisələrinin öz nizamnamələri çərçivəsində profil və fəaliyyət istiqamətlərinə uyğun olaraq, əlavə gəlir əldə etmək məqsədi ilə hansı sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməzlər?**

A. məsləhət-konsaltinq xidmətlərinin göstərilməsi
B. tədris prosesində əldə olunan məhsulun satışı
C. ümumi təhsil müəssisələrində məktəbə hazırlıq qruplarının, idman seksiyalarının və yaradıcılıq dərnəklərinin təşkili
D. dərsliklər şagirdlər arasında paylandıqdan sonra əlavə qalan hissənin satışının həyata keçirilməsi
E. təhsil müəssisələrinin idman zalları və meydançalarından dərsdənkənar və təhsilalanların istifadəsində olmadığı vaxtlarda təyinatı üzrə digər tədbirlərin həyata keçirilməsi üçün istifadə edilməsi

***Düzgün cavab: D***

İZAH: "Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli, 10 nömrəli Qərarı
Təhsil müəssisələrinin öz nizamnamələri çərçivəsində profil və fəaliyyət istiqamətlərinə uyğun olaraq, əlavə gəlir əldə etmək məqsədi ilə məşğul olmasına yol verilən aşağıdakı sahibkarlıq fəaliyyəti növləri müəyyən edilsin:
- ödənişli əlavə təhsil;
- məsləhət-konsaltinq xidmətlərinin göstərilməsi;
- təhsil məhsulunun (təhsil sahəsində innovasiyalar, orijinal təhsil və fənn proqramları, təlim metodları sistemi, təhsil modulları, təhsil layihələri) satışı;
- elmi tədqiqat və təcrübi-konstruktor işləri;
- elmi-praktiki tədbirlərin təşkili;
- nəşriyyat-poliqrafiya işləri;
- tədris prosesində əldə olunan məhsulun satışı;
- dövlət ümumi təhsil proqramlarında nəzərdə tutulmayan bilik və bacarıqların tədrisi və qiymətləndirilməsi, o cümlədən beynəlxalq təhsil proqramlarının tətbiqi;
- ümumi təhsil müəssisələrində məktəbə hazırlıq qruplarının, idman seksiyalarının və yaradıcılıq dərnəklərinin təşkili;
- təhsil müəssisələrinin idman zalları və meydançalarından dərsdənkənar və təhsilalanların istifadəsində olmadığı vaxtlarda təyinatı üzrə digər tədbirlərin həyata keçirilməsi üçün istifadə edilməsi;
- təhsil müəssisəsinin profilinə və fəaliyyət istiqamətlərinə ziddiyyət təşkil etməyən iş və xidmətlərin göstərilməsi.

**10. Ümumi təhsil pilləsini başa vurmamış hesab edilirlər:**

A. Tədris planında nəzərdə tutulmuş fənn (fənlər) üzrə tələb olunan kreditləri qazanmayan və yaxud yekun attestasiyadan keçməyən şəxslər
B. Ümumi orta və tam orta təhsil səviyyələri üzrə müvafiq sinfi bitirdikdən sonra texniki fənlər üzrə biliyi qiymətləndirilməyən şəxslər
C. Ümumi orta və tam orta təhsil səviyyələri üzrə müvafiq sinfi bitirdikdən sonra təhsilini davam etdirməyən və ya hər hansı dərs ilində dərs məşğələlərində iştirak etmədiyi üçün

fənn (fənlər) üzrə biliyi qiymətləndirilməyən və ya buraxılış imtahanında iştirak etməyən şəxslər
D. Ümumi orta və tam orta təhsil səviyyələri üzrə müvafiq sinfi bitirdikdən sonra təhsilini davam etdirməyən şəxslər
E. Tədris planında nəzərdə tutulmuş fənn (fənlər) üzrə attestasiyadan və yaxud yekun attestasiyadan keçməyən şəxslər

***Düzgün cavab: C***
İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli, 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"
1.2. Ümumi orta və tam orta təhsil səviyyələri üzrə müvafiq sinfi bitirdikdən sonra təhsilini davam etdirməyən və ya hər hansı dərs ilində dərs məşğələlərində iştirak etmədiyi üçün fənn (fənlər) üzrə biliyi qiymətləndirilməyən və ya buraxılış imtahanında iştirak etməyən şəxslər ümumi təhsil pilləsini başa vurmamış hesab edilirlər.

**11. Ümumi təhsilin idarə olunması hansı prinsiplər əsasında həyata keçirilir?**
1. təhsilin məzmununun müəyyənləşdirilməsi
2. hesabatlılıq
3. tədqiqatçılıq
4. məsuliyyətin bölüşdürülməsi
5. inkişafın monitorinqi
A. 1,2,3
B. 2,4,5
C. 3,4
D. 3,4,5
E. 1,3,4

***Düzgün cavab: B***
İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli, 103 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"
3.Ümumi təhsilin idarə olunması
3.1. Ümumi təhsilin idarə olunması hesabatlılıq, məsuliyyətin bölüşdürülməsi və inkişafın monitorinqi prinsipləri əsasında həyata keçirilir.

**12. Peşə təhsili müəssisələrində qruplar üzrə təhsil müddəti ilə bağlı qeyd olunanlardan biri yanlışdır:**
A. ümumi orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 1 il, texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 2 il
B. tam orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 6 ay, texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 1 il
C. ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda - 2 il;
D. ümumi orta təhsil bazasından qəbul olunmuş və yüksək texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 4 il;
E. tam orta təhsil bazasından qəbul olunmuş və yüksək texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 3 il;

***Düzgün cavab: C***

İZAH:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 4 iyun tarixli, 104 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti"

1.3. Peşə təhsili üzrə

Ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda təhsil müddətli 3 il təşkil edir.

**13. Ümumtəhsil məktəbi beynəlxalq əlaqələr sahəsində hansı hüquqlara malikdir?**

1. qanunvericiliyə uyğun olaraq xarici ölkələrin ümumtəhsil məktəbləri ilə birbaşa əlaqələr yaratmaq, onlarla təcrübə mübadiləsi aparmaq;
2. Xarici ölkələrin diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşlər keçirmək, danışıqlar aparmaq
3. qarşılıqlı dəvət əsasında əməkdaşlıq etdiyi məktəbin nümayəndə heyətini qəbul etmək, həmin məktəbə nümayəndələr göndərmək
4. məktəb daxilində xarici təşkilatların nümayəndəliklərini yaratmaq
5. beynəlxalq birlik və assosiasiyalara üzv olmaq.

A. 1, 3, 4
B. 3, 4
C. 2, 4, 5
D. 1, 3, 5
E. 1, 3

***Düzgün cavab: D***

İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli, 5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"

12. Ümumtəhsil məktəbinin beynəlxalq əlaqələri

12.1. Ümumtəhsil məktəbi beynəlxalq əlaqələr sahəsində aşağıdakı hüquqlara malikdir:

12.1.1. qanunvericiliyə uyğun olaraq xarici ölkələrin ümumtəhsil məktəbləri ilə birbaşa əlaqələr yaratmaq, onlarla təcrübə mübadiləsi aparmaq;

12.1.2. qarşılıqlı dəvət əsasında əməkdaşlıq etdiyi məktəbin nümayəndə heyətini qəbul etmək, həmin məktəbə nümayəndələr göndərmək;

12.1.3. birgə seminar, konfrans və digər tədbirlər təşkil etmək, təhsil layihələrində iştirak etmək;

12.1.4. beynəlxalq birlik və assosiasiyalara üzv olmaq.

**14. Orta ixtisas təhsili pilləsi üzrə təhsilalma formaları hansı bənddə doğru verilmişdir?**

A. əyani, sərbəst (eksternat)
B. əyani, qiyabi, distant (məsafədən)
C. əyani, qiyabi
D. əyani (tədrisə tam cəlb olunma – fulltime və tədrisə qismən cəlb olunma – parttime), qiyabi
E. əyani

***<u>Düzgün cavab: B</u>***

İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 avqust tarixli, 147 nömrəli qərarı ilə təsdiq edilmiş “Formal təhsilin təşkili Qaydaları”

5.Təhsil pillələri və səviyyələrində təhsilalma formalarının tətbiqi aşağıdakı kimi müəyyən edilir:

5.3. orta ixtisas təhsili pilləsi üzrə:

əyani, qiyabi, distant (məsafədən).

**15. Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normaları barədə qeyd edilənlərdən doğru olan bəndi seçin:**

A. məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilərin həftəlik iş vaxtı - 25 saat

B. bütün tipdən olan ümumtəhsil məktəblərində, gimnaziya və liseylərdə, peşə məktəbləri və peşə liseylərində müəllimlərin 1 (bir) stavka dərs yükü – 18 saat (bu zaman həftəlik dərs yükü 2 (iki) stavkanı aşmamalıdır), idman və incəsənət məktəblərində müəllimlərin, məktəbdənkənar təhsil müəssisələrində dərnək rəhbərlərinin həftəlik 1 (bir) stavka dərs yükü - 12 saat (bu zaman həftəlik dərs yükü 3 (üç) stavkanı aşmamalıdır)

C. ümumtəhsil məktəblərində, internatlarda, lisey, gimnaziyalar və peşə məktəblərində tərbiyəçi-müəllimlərin həftəlik iş vaxtı - 30 saat

D. ali və orta ixtisas təhsili müəssisələrində professor-müəllim heyətinin və konsertmeysterlərin bir stavka üzrə illik dərs yükü - 400 saatdan az olmamaqla (bu zaman ali təhsil müəssisələrində mühazirə, seminar, laborator və praktiki məşğələlərə, eləcə də mədəniyyət, musiqi, incəsənət təmayüllü ixtisaslarda fərdi dərslərə ayrılan vaxtın həcmi illik dərs yükünün 50 faizindən, orta ixtisas təhsili müəssisələrində nəzəri, laborator və praktiki məşğələlərə, eləcə də mədəniyyət, musiqi, incəsənət təmayüllü ixtisaslarda fərdi dərslərə ayrılan vaxtın həcmi isə illik dərs yükünün 70 faizindən az olmamalıdır)

E. ümumtəhsil məktəblərində, internatlarda, lisey, gimnaziyalar və peşə məktəblərində tərbiyəçi-müəllimlərin həftəlik iş vaxtı - 32 saat

***<u>Düzgün cavab: B</u>***

İZAH: “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli, 215 nömrəli Qərarı

1. Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normaları aşağıdakı kimi müəyyən edilsin:

məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilərin həftəlik iş vaxtı - 30 saat;

bütün tipdən olan ümumtəhsil məktəblərində, gimnaziya və liseylərdə, peşə məktəbləri və peşə liseylərində müəllimlərin 1 (bir) stavka dərs yükü – 18 saat (bu zaman həftəlik dərs yükü 2 (iki) stavkanı aşmamalıdır), idman və incəsənət məktəblərində müəllimlərin, məktəbdənkənar təhsil müəssisələrində dərnək rəhbərlərinin həftəlik 1 (bir) stavka dərs yükü - 12 saat (bu zaman həftəlik dərs yükü 3 (üç) stavkanı aşmamalıdır);

ümumtəhsil məktəblərində, internatlarda, lisey, gimnaziyalar və peşə təhsili məktəblərində tərbiyəçi-müəllimlərin həftəlik iş vaxtı - 24 saat;

ali və orta ixtisas təhsili müəssisələrində professor-müəllim heyətinin və konsertmeysterlərin bir stavka üzrə illik dərs yükü - 500 saatdan az olmamaqla (bu zaman ali təhsil müəssisələrində mühazirə, seminar, laborator və praktiki məşğələlərə,

eləcə də mədəniyyət, musiqi, incəsənət təmayüllü ixtisaslarda fərdi dərslərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən, orta ixtisas təhsili müəssisələrində nəzəri, laborator və praktiki məşğələlərə, eləcə də mədəniyyət, musiqi, incəsənət təmayüllü ixtisaslarda fərdi dərslərə ayrılan vaxtın həcmi isə illik dərs yükünün 80 faizindən az olmamalıdır).

**16. Məktəbəqədər və ümumi təhsil müəssisələrində təhsilalanlar:**
A. yaşadıqları ərazidə yerləşən xəstəxana tərədindən tibbi xidmətlə təmin edilirlər.
B. təhsil aldıqları müəssisədə pulsuz tibbi xidmətlə təmin edilirlər.
C. yaşadıqları ərazi poliklinikası tərəfindən pulsuz tibbi xidmətlə təmin edilirlər
D. fərdi qaydada istənilən poliklinikaya müraciət edərək tibbi xidmətlə təmin oluna bilərlər.
E. Respublika üzrə poliklinikalar tərəfindən pulsuz tibbi xidmətlə təmin edilirlər.

***<u>Düzgün cavab: C</u>***
İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 noyabr tarixli 217 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisəsində təhsilalanlara pulsuz tibbi xidmətin göstərilməsi Qaydası”
2. Təhsil müəssisələrində təhsilalanlara pulsuz tibbi xidmətin göstərilməsi
2.1. Məktəbəqədər və ümumi təhsil müəssisələrində təhsilalanlar yaşadıqları ərazi poliklinikası tərəfindən pulsuz tibbi xidmətlə təmin edilirlər.

**17. Təhsil müəssisəsində qida blokunun işçiləri sanitariya-gigiyena minimumlar üzrə hazırlıq kursları keçməlidirlər:**
A. iki ildən bir dəfədən az olmayaraq
B. üç ildən bir dəfədən az olmayaraq
C. altı aydan bir dəfədən az olmayaraq
D. doqquz aydan bir dəfədən az olmayaraq
E. dörd ildən bir dəfədən az olmayaraq

***<u>Düzgün cavab: A</u>***
İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 noyabr tarixli, 218 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisəsində iaşə və tibb xidmətinin təşkili Qaydası və Normaları”
2. İaşənin təşkili
2.7.Qida blokunun işçiləri iki ildən bir dəfədən az olmayaraq, sanitariya-gigiyena minimumlar üzrə hazırlıq kursları keçməlidirlər.

**18. Aşağıda qeyd olunan bəndlərdən biri “Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili Qaydaları”na aid deyil:**
A. Evdə fərdi təhsilə ümumtəhsil məktəblərinə) cari ilin I sentyabrınadək 6 yaşı tamam olan, xüsusi məktəblərdə isə (əqli cəhətdən qüsurlu) 7 yaşı tamam olan səlahiyyətinə görə ümumtəhsil məktəblərində oxuya bilməyən uşaqlar cəlb olunur.
B. Evdə dərs məşğələləri ümumtəhsil proqramı ilə 45, xüsusi təhsil proqramı ilə 40 dəqiqə müəyyən edilir.
C. Şagirdlərin evdə təhsilə qəbulu tədris ilinin birinci yarısı aparılır.

D. Evdə fərdi məşğul olan şagirdin dərs məşğələlərinə sinif rəhbəri, proqram materiallarının yerinə yetirilməsi və həmin prosesdə tətbiq edilən metodiki işə təlim-tərbiyə işi üzrə direktor müavini, bütün prosesini gedişinə isə direktor məsuliyyət daşıyır.
E. Evdə fərdi qaydada təhsil alan şagirdlərlə işləyən pedaqoji işçinin, mütəxəssisin seçilməsində könüllülük prinsipinə əməl olunmalı, həmin kateqoriyadan olan uşaqlarla işləyəcək müəllimlərin arzusuna üstünlük verilməlidir.

***<u>Düzgün cavab: C</u>***
İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli, 77 nömrəli qərarı ilə təsdiq edilmiş "Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin Təşkili Qaydaları"
II. Evdə təhsilin təşkili qaydaları
7.Şagirdlərin evdə təhsilə qəbulu il boyu aparılır.

**19. Xarici ölkələrdən Azərbaycan Respublikasının məktəblərinə yerdəyişmə zamanı şagirdin təhsil sənədləri olmadıqda və ya təqdim olunmuş sənədlərdən şagirdin qəbul olunmalı sinfi müəyyən etmək mümkün olmadıqda:**
A. I – XI siniflərdə oxuduğu iddia edilən şagirdin həmin siniflərin təhsil proqramlarına (kurikulumlarına) uyğun hazırlıq səviyyəsi yoxlanıldıqdan sonra müvafiq komissiyanın rəyi və məktəb rəhbərliyinin nəzarəti ilə evdə təhsilinə icazə verilir.
B. Azərbaycan dilini bilmədikləri halda şagirdlər tədris Azərbaycan dilində olan siniflərə qəbul edilirlər. Azərbaycan dilini tam şəkildə mənimsədikdən sonra valideynin razılığı tədrisi digər dildə olan siniflərə keçirilirlər.
C. Tədris rus və ya gürcü dilində olan məktəblərə qəbul edilmiş şagirdlərə əvvəl oxuduqları məktəbdə tədris olunmayan fənlərdən (yalnız Azərbaycan tarixi) əlavə məşğələlər təşkil edilir.
D. I – IX siniflərdə təhsil alan şagirdlərin valideynləri övladının təhsilini davam etdirməsi üçün seçdiyi məktəbin direktoruna ərizə ilə müraciət edir. Ərizəyə şagirdin əvvəl oxuduğu məktəbin direktoru tərəfindən təsdiq olunmuş qiymət cədvəli əldə olan surəti əlavə edilir. Nəzərdə tutulan sinifdə şagird sayı və sinif otağının ölçüsü həmin şagirdin qəbuluna imkan verdiyi halda, o, məktəbin müvafiq sinfinə qəbul olunur.
E. I – XI siniflərdə oxuduğu iddia edilən şagirdin həmin siniflərin təhsil proqramlarına (kurikulumlarına) uyğun hazırlıq səviyyəsi yerli təhsili idarəetmə orqanları tərəfindən yaradılmış komissiya vasitəsilə yoxlanılır. Komissiyanın rəyi əsasında şagirdin müvafiq sinfə qəbulu məktəbdə rəsmiləşdirilir və ona şəxsi iş açılır.

***<u>Düzgün cavab: E</u>***
İZAH: Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2014-cü il 6 noyabr tarixli, 1/3 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaqların (şagirdlərin) ümumi təhsil müəssisələrinə qəbulu və yerdəyişməsi Qaydaları"
4.Şagirdlərin ölkədən xaricə və ya xarici ölkələrdən Azərbaycan Respublikasının məktəblərinə yerdəyişməsi
4.4. Azərbaycan Respublikasından kənarda yaşayan şəxslər Azərbaycan Respublikasına daimi yaşayış məqsədi ilə gəldikdə onların rus və ya gürcü dillərindətəhsil alan övladlarının köçdükləri ərazidə dövlət məktəblərinə qəbulu aşağıdakı qaydada həyata keçirilir:

4.4.3. Təhsil sənədləri olmadıqda və ya təqdim olunmuş sənədlərdən şagirdin qəbul olunmalı sinfi müəyyən etmək mümkün olmadıqda:
4.4.3.1. I – XI siniflərdə oxuduğu iddia edilən şagirdin həmin siniflərin təhsil proqramlarına (kurikulumlarına) uyğun hazırlıq səviyyəsi yerli təhsili idarəetmə orqanları tərəfindən yaradılmış komissiya vasitəsilə yoxlanılır. Komissiyanın rəyi əsasında şagirdin müvafiq sinfə qəbulu məktəbdə rəsmiləşdirilir və ona şəxsi iş açılır;
4.4.3.2. Azərbaycan dilini tədris dili səviyyəsində bildikləri halda, şagirdlər tədris Azərbaycan dilində olan siniflərə qəbul edilirlər. Həmin şagirdlərin tədris dilini dəyişməsinə valideynin ərizəsinə əsasən məktəbdə baxılır;
4.4.3.3. Tədris rus və ya gürcü dilində olan məktəblərə qəbul edilmiş şagirdlərə əvvəl oxuduqları məktəbdə tədris olunmayan fənlərdən (Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası və s.) əlavə məşğələlər təşkil edilir.

**20. Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları ilə bağlı qeyd olunanlardan biri yanlışdır:**
A. Psixoloji xidmət valideynlər və ya digər qanuni nümayəndələr, təhsil müəssisəsinin rəhbərliyi və pedaqoji işçiləri ilə əməkdaşlıq vasitəsilə təhsilalanların psixoloji vəziyyətinin, təhsil fəaliyyətinin, sosial-mənəvi problemlərinin öyrənilməsini və onlara psixoloji dəstəyin göstərilməsini, onların proqressiv psixi inkişafını, meyil, maraq və potensialının reallaşdırılmasını, habelə mümkün psixi pozuntuların profilaktikasını təmin edir.
B. Psixoloji xidmətin işi aşağıdakı 2 formada təşkil olunur: ümumi xidmətlər və xüsusi xidmətlər
C. Psixoloq Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş iş vaxtı çərçivəsində təhsilalanlara fərdi şəkildə psixoloji yardım göstərir.
D. Psixoloqun işinin təşkili məqsədilə təhsil müəssisəsində təhsilalanlarla, təhsilverənlərlə, valideynlərlə və ya digər qanuni nümayəndələrlə görüşlər keçirmək, konsultasiya və korreksiyaedici tədbirlər aparmaq üçün avadanlıq və didaktik materiallarla təchiz edilmiş psixoloji xidmət kabineti yaradılır.
E. Psixoloqların peşəkar inkişafı “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, onların əlavə təhsilə cəlb edilməsi yolu ilə təmin olunur.

***Düzgün cavab: C***
İZAH: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 157 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları”
5.5.Psixoloq Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş iş vaxtı çərçivəsində təhsilalanlara **fərdi və ya qrup** şəklində psixoloji yardım göstərir.